# İxtisas üzrə Məmnuniyyət Sorğusu

**Tarix-28.04.2025-04.05.2025**

Bu hesabat **Dizayn, Fəlsəfə və Tarix** ixtisasları üzrə təhsil alan tələbələrin ixtisas məmnuniyyəti səviyyəsinin qiymətləndirilməsi məqsədilə keçirilmiş sorğunun nəticələrinə əsaslanır. Sorğuda ümumilikdə **128 nəfər** tələbə iştirak etmişdir. Əldə edilən nəticələr tədris prosesinin təkmilləşdirilməsi və idarəetmə qərarlarının əsaslandırılması məqsədilə istifadə olunacaqdır.

## 1. Seçdiyim ixtisas üzrə tədris olunan fənlərin məzmunundan məmnunam:




## 2. İxtisas üzrə əldə etdiyim bilik və bacarıqların gələcək karyeram üçün faydalı olacağına inanıram:




## 3. Tədris materialları (kitablar, məqalələr, resurslar və s.) kifayət qədər aktual və faydalıdır:



**4. Təcrübə proqramları və praktik fəaliyyətlər (layihələr, təqdimatlar və s.) ixtisası daha yaxşı mənimsəməyimə kömək edib.**




**5. Seçdiyim ixtisasın əmək bazarında rəqabətə davamlı və tələbatlı olduğuna inanıram.**




## 6. İxtisas üzrə təhsil və ümumi tədris prosesi ilə bağlı əlavə rəy və təkliflərin ümumiləşdirilməsi

Sorğu iştirakçılarının bir hissəsi ixtisas üzrə tədris prosesindən və ümumilikdə təhsil keyfiyyətindən məmnun olduqlarını bildirmişlər. Bununla yanaşı, müxtəlif sahələr üzrə aşağıdakı məsələlərlə bağlı irad və təkliflər təqdim olunmuşdur:

- **Tədris prosesinin təşkili və məzmunu**

Tələbələr Dizayn ixtisası üzrə tədrisin praktik və interaktiv elementlərlə daha zənginləşdirilməsini, kompüter proqramlarının (dizayn proqramları) dərslərə effektiv şəkildə inteqrasiyasını, yaradıcılığı təşviq edən layihələrin və seminarların təşkilini təklif etmişlər. 3-cü kurs tələbələri arasında bu sahədə tədrisin hələ də əsasən əl işləri üzərində qurulmasından narazılıq ifadə olunmuşdur.

- **Müəllim heyətinin fəaliyyəti və qiymətləndirmə**

Bir sıra tələbələr müəllimlərin peşəkarlığını yüksək qiymətləndirsə də, qiymətləndirmədə obyektivliyin və şəffaflığın bəzi hallarda təmin olunmaması ilə bağlı narazılıqlar qeyd edilmişdir. Bildirilmişdir ki, bəzi müəllimlər qiymətləndirməni tələbəyə olan şəxsi münasibətə

əsasən aparır. Bununla yanaşı, bir neçə müəllimin (xüsusilə Leyla xanım, Zümrüd xanım və Elvin müəllim) dərs keçmə tərzi xüsusi müsbət nümunə kimi göstərilmişdir.

- **Akademik planlaşdırma və idarəetmə**

Tələbələr imtahanlar arasında daha uzun fasilələrin ayrılmasını və dərs yüklərinin ədalətli planlaşdırılmasını təklif etmişlər. Eyni zamanda, dərs və imtahan cədvəllərinin işləyən tələbələrin şəraitinə uyğun tənzimlənmədiyi və qərarların tələbələrlə məsləhətləşmədən qəbul edildiyi qeyd olunmuşdur.

- **İnfrastruktur və təhsil mühiti**

Xüsusilə İçərişəhər korpusunda infrastrukturla bağlı ciddi çatışmazlıqlar qeyd olunmuşdur. Bufetin fəaliyyət göstərməməsi, dərs otaqlarında və sanitar qovşaqlarda şəraitin zəif olması, kompüterlərin işləməməsi və ümumi texniki təchizatın yetərsizliyi tələbələrin əsas narazılıqları sırasındadır.

- **Təqaüd və qiymətləndirmə siyasəti**

Tələbələr yüksək ortalama ballara malik olmalarına baxmayaraq təqaüdə layiq görülmədiklərini qeyd etmiş və bu meyarların aydın şəkildə açıqlanmasını tələb etmişlər.

- **Dil siyasəti və müəllim nümunəsi**

Bəzi tələbələr Azərbaycan dilinin tədrisi və istifadəsi sahəsində müəllimlərin nümunəvi davranış göstərməli olduqlarını, ana dilində səlis və düzgün danışmağın tələbələrə aşılanmasının vacibliyini vurğulamışlar.

- **Fərdi şikayətlər**

Tarix ixtisası üzrə dərs deyən müəllim Salman İbişovun fəaliyyətindən narazılıq ifadə olunmuşdur. Tələbələr tərəfindən müəllimin tələbə fikirlərinə önəm vermədiyi və dərs prosesində tələbələrlə əməkdaşlığın zəif olduğu bildirilmişdir. Bu məsələ ilə bağlı universitet rəhbərliyindən müvafiq tədbirlərin görülməsi istənilmişdir.